**Hüseynov S.Z.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.91-99**
**UOT: 342**

# Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramlarının və strategiyasının həyata keçirilməsində bələdiyyələrin rolunun hüquqi qiymətləndirilməsi problemləri

**Xülasə:** Məqalə dövlət proqramları və Strateji Yol Xəritəsi ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində bələdiyyələrin iştirakının qiymətləndirilməsi problemlərinə həsr edilmişdir. Azərbaycan Respublikasının strateji məqsədlərinin realizə edilməsində bələdiyyələrin rolunun artırılması zəruriliyi dövlətin orta və uzun müddətli inkişaf proqramlarında və strategiyasında nəzərdə tutulan tədbirlərdə bələdiyyələrin iştirakının müəyyənləşdirilməməsi ilə şərtləndirilir. Göstərilən problemin Forsayt metodologiyasına əsaslanan tədqiqat metodlarından istifadə edilməsi qaydasında həll edilməsi üçün Azərbaycan Respublikasında yerli özünüidarənin inkişafı üzrə Yol Xəritəsinin hazırlanmasına dair təklif irəli sürülmüşdür.

**Açar sözlər:** dövlət; iqtisadiyyat; proqram; strategiya; vəzifə; tədbir; bələdiyyə; iştirak; qiymətləndirmə.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf perspektivlərini və prioritetlərini müəyyənləşdirən dövlət proqramlarında və strategiyasında yerli özünüidarə orqanlarının iştirakının mövcud vəziyyətinin qiymətləndirilməsiölkədə yerli özünüidarə sisteminin inkişaf istiqamətlərinin əsaslandırılmasının həlledici amillərindən biri hesab edilir.

2003-2023-cü illərdə respublikanın inkişafı üzrə tədbirlər beşillik (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) üzrə Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair beşillik Dövlət Proqramlarına uyğun olaraq həyata keçirilmişdir. Dövlət Proqramlarının həyata keçirilməsində başlıca məqsəd Azərbaycanda regionların davamlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaqdan ibarətdir [8]. Dövlət Proqramında regionlar üzrə yerli əhəmiyyətli tədbirlərə yerli əhəmiyyətli avtomobil yollarının, kəndlərarası avtomobil yollarının tikintisi və əsaslı təmiri, içməli su təchizatının yaxşılaşdırılması, turizmin inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və abadlıq-quruculuq işlərinin davam etdirilməsi və s. aid edilə bilər. Eyni adlı tədbirlərin bələdiyyələrin qanunla təsbit edilən sosial inkişaf, iqtisadi inkişaf və ekoloji proqramları ilə də nəzərdən tutulmasına baxmayaraq, Dövlət Proqramının icraçılarının siyahısında əsasən yerli icra hakimiyyətinin adı göstərilir. “Bələdiyyələrin statusu haqqında” Qanunun 4, 5 və 6-cı maddələrində dövlətin həyata keçirdiyi inkişaf və ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə hesab edilən yerli əhəmiyyətli tədbirlər bələdiyyələr tərəfindən icra edilir. Eyni tədbirin yerli icra hakimiyyəti ilə bələdiyyə arasında hansı nisbətdə bölünməsi “Yerli icra hakimiyyətləri haqqında” Əsasnamə və “Bələdiyyələrin statusu haqqında” Qanunla nəzərdə tutulmur.

♦ **Hüseynov Sahil Zahir oğlu** - h.f.d., Milli Aviasiya Akademiyası, “Hüquq” kafedrasının müdiri (Azərbaycan). E-mail: sahilhuseynov@naa.edu.az. https://orcid.org/0009-0003-0732-7110

Bələdiyyələr Azərbaycan Respublikasının regionlarının 2008-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında nəzərdə tutulan tədbirlərin icraçılarının siyahısına daxil edilməmişdir. Azərbaycan Respublikası Milli Məclisinin Regional Məsələlər Komitəsinin üzvü Kamran Bayramov bələdiyyələrin regionların sosial-iqtisadi inkişafında mühüm rol oynadığını bəyan edir, lakin Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələrinin tərkibində yerli büdcələrin olmamasını unudur [12]. Nəzərə almaq lazımdır ki, internet səhifəsində dərc edilən və Dövlət Proqramının şərhinə həsr edilən müsahibə elmi araşdırmalar üçün məlumat mənbəyi kimi istifadə edilə bilər. Beləliklə, respublikanın regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində bələdiyyələrin rolunun artırılması ilə bağlı olan məsələnin həllinin zəruriliyini etiraf etmək lazımdır.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" beş il üçün hesablanmış plan çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin əlaqələndirilmiş şəkildə təşkili, ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, dövlət-özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımın stimullaşdırılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi kimi hədəflərin həyata keçirilməsini nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, Dövlət Proqramı ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində bələdiyyələrin iştirakının qeyri-mümkünlüyünü qəbul etmək lazımdır. Belə ki, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunu (25 dekabr 2001-ci il) qəbul edilərkən Azərbaycan Respublikası bəyan etmişdir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olununa qədər təminat vermək iqtidarında deyildir [13].

İndiki mərhələdə icra olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq məcburi köçkünlərin dayanıqlı məskunlaşması təmin edildikdən sonra Azərbaycan Respublikasının Avropa Şurasının Baş Katibinə bildiriş göndərmək yolu ilə Xartiyanın qüvvəsinin işğaldan azad edilmiş ərazilərə şamil edilməsinə nail olmaq mümkün olacaq.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi Azərbaycan iqtisadiyyatının orta və uzunmüddətli perspektivdə dayanıqlı və davamlı inkişaf istiqamətlərini müəyyən edən mühüm dövlət sənədidir. Yol Xəritəsinin qlobal çağırışlara uyğun investisiyaların cəlb edilməsi, azad rəqabət mühitinin yaradılması, dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi, əlverişli biznes mühitinin və insan kapitalının inkişaf etdirilməsi kimi hədəflərinin həyata keçirilməsi üçün dövlət qurumları ilə yanaşı bələdiyyələrin öz fəaliyyətlərinin daha müfəssəl proqramlar əsasında qurulması tələb olunur. Belə bir tələbin tərəfimizdən irəli sürülməsi Strateji Yol Xəritəsinin bütünlükdə ölkə iqtisadiyyatının inkişafı perspektivlərinin və prioritetlərinin müəyyənləşdirilməsindən ibarət olan təyinatı ilə bilavasitə bağlıdır. Bələdiyyələrin Strateji Yol Xəritəsinin həyata keçirilməsində rolunu qiymətləndirərkən müvafiq müddəanın (hüquqi əsasın) bu sənəddə nəzərdə tutulmadığına diqqət yetirmək lazımdır. Strateji Yol Xəritəsi ilə qarşıya qoyulan ikinci hədəf "özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi" adlanır. Strateji hədəfin realizə edilməsində prioritet olaraq özəlləşdirmə gündəliyinin uğurla icrası və əsas sektorlarda özəlləşdirmənin həyata keçirilməsi göstərilmişdir. Qeyd edək ki, dövlət əmlakının özəlləşdirilməsi gündəliyində dövlətdən bələdiyyələrə əmlak

transferi ilə bağlı məsələnin nəzərə alınmaması Strateji Yol Xəritəsinin qüsurlu olmasını təsdiq etməyə imkan verir.

Azərbaycan Respublikası yerli özünüidarə institutunu özünün Konstitusiyası və “Bələdiyyələrin statusu haqqında” Qanunu ilə təsdiq etdikdən sonra “Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında” Qanun (7 dekabr 1999-cu il) və “Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə”ni (Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir) qəbul etmişdir. Strateji Yol Xəritəsi 2016-cı ildə təsdiq edilərkən dövlət əmlakının bələdiyyələrə verilməsini nəzərdə tutan Qanun və Əsasnamə qüvvədə olmuş və eyni zamanda həmin Qanunla nəzərdə tutulan dövlət əmlakı bələdiyyələrə verilməmişdi. Azərbaycan Respublikasında dövlət əmlakının hüquqi rejimi haqqında təsəvvürü olmayan müəlliflər Strateji Yol Xəritəsini hazırlayarkən dövlət əmlakının institusional strukturunda orta və uzunmüddətli perspektivdə baş verə biləcək dəyişiklikləri proqnozlaşdıra bilməmişlər. Strateji Yol Xəritəsi ilə nəzərdə tutulan layihələrin icrasında bələdiyyələrin iştirakı inkar olunsa da, yerli büdcələrin Strateji Yol Xəritələri çərçivəsində həyata keçirilən tədbirlərin maliyyələşdirmə mənbəyi kimi istifadə olunmasına dair müddəa həmin sənədin “maliyyələşdirmə mexanizmləri” adlanan 8-ci bölməsində təsbit edilmişdir. Beləliklə, dövlətin yerli və beynəlxalq özəl sektor nümayəndələri ilə kommunikasiyasına və əməkdaşlığına əsaslanan strateji hədəflərin prioritetlərinin bu əməkdaşlıqda bələdiyyələrin iştirakı nəzərə alınmadan əsaslandırılmasının qanunauyğunluğunu qəbul etmək mümkün deyildir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının milli iqtisadiyyatının orta və uzunmüddətli perspektivdə inkişafı perspektivlərini və prioritetlərini müəyyən edən və eyni zamanda postsovet dövründə ölkədə institusional islahatların aparılması nəticəsində bələdiyyə mülkiyyəti institutunun yarandığını inkar edən Strateji Yol Xəritəsi adlanan rəsmi sənədin hazırlanmasında milli kadrların iştirakını qənaətbəxş hesab etmək olmaz.

Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı əsasında təsdiq edilməsi ilə o, Azərbaycan Respublikasının qanunvericilik sisteminə mənşəyi və işlənilməsi sirləri məlum olmayan, lakin respublika iqtisadiyyatının orta və uzunmüddətli inkişaf perspektivlərini və prioritetlərini tənzimləmək məqsədi daşıyan hüquqi əhəmiyyətli akt kimi daxil olmuşdur. Strateji Yol Xəritəsinin metodoloji əsasını cəmiyyətin və dövlətin siyasi və iqtisadi həyatının müxtəlif sahələrində inkişaf perspektivlərinin və prioritetlərinin əsaslandırılmasını təmin edən Forsayt tədqiqatları təşkil edir. Ölkənin gələcəyini qabaqcadan təsvir etmək və inkişafının prioritet istiqamətlərini qiymətləndirmək metodologiyası kimi Forsayt tədqiqatları öz səmərəliliyini Yaponiya, ABŞ, Qərbi Avropa və bir sıra digər yeni sənaye ölkələrində aparılan proqnoz –analitik araşdırmaların nəticələri ilə təsdiq etmişdir [14].

Forsayt tədqiqatların aparılması sayəsində qlobal meyllərə və gələcək çağırışlara cavab verən sosial-iqtisadi inkişaf proqramlarının işlənib hazırlanması sahəsində fundamental biliklər sistemi yaranır. 1990-2020-ci illərdə siyasi və iqtisadi həyatın müxtəlif sahələrində inkişaf prioritetlərinin əsaslandırılması üçün Forsayt tədqiqat metodlarından biri kimi yol xəritəsinə daha çox üstünlük verilmişdir [16; 15].

Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili və həyata keçirilməsi sahəsində mövcud olan problemlərin həlli üçün Forsayt metodlarından biri kimi Strateji Yol Xəritəsindən istifadə edilməsinin mümkünlüyü etiraf edilməlidir. 1995-2023-cü illərdə Azərbaycanda yerli özünüidarənin təşkili vəziyyətinin retrospektivdə qiymətləndirilməsi Yol Xəritəsinin aşağıdakı problemlərin həllində müstəsna rol oynaya bilməsini ön plana çəkir:

1) yerli özünüidarəyə dair beynəlxalq hüquq və milli hüquq normalarının təkmilləşdirilməsi və konvergensiyasının təmin edilməsi;

2) inzibati maneələrin aradan qaldırılması;

3) yerli əhalinin özünüidarə hüququnun realizə edilməsi;

4) bələdiyyə - dövlət və bələdiyyə - özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi;

5) bələdiyyə idarəetməsinin səmərəliliyinin yüksəldilməsi;

6) yerli özünüidarənin inkişafı üzrə Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi.

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının (Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir) həyata keçirilməsi bütün fəaliyyət istiqamətləri üzrə bələdiyyələrin rolunun yüksəldilməsinə təkan verə bilər. Lakin, qeyd edilən sosial-iqtisadi inkişaf strategiyası ilə təsdiq edilən tədbirlərin icrasında bələdiyyələrin iştirakı nəzərdə tutulmamışdır [10]. Orta müddətli perspektiv üçün ölkənin siyasi və iqtisadi həyatında baş verə biləcək dəyişikliklərin proqnozlaşdırılması üçün Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" xüsusi əhəmiyyət kəsb edir. Növbəti onillikdə respublikanın sosial-iqtisadi inkişafının milli prioritetlərinə uyğun olaraq aşağıdakı vəzifələrin icrası təmin olunacaq:

- cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsinin möhkəmləndirilməsi;
- kölgə iqtisadiyyatının minimuma endirilməsi, özəl və dövlət sektorunda şəffaflıq səviyyəsinin ən yüksək standartlara çatdırılması;
- dövlətin əhali təbəqələrinin qayğısına qalması;
- qabaqcıl və effektiv təşəbbüslərə əsaslanan iqtisadi artımın təmin edilməsi, dövlət və özəl əməkdaşlığının gücləndirilməsi [11].

Göründüyü kimi, növbəti onillikdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərə aid edilən vəzifələr müstəsna olaraq dövlət hakimiyyəti orqanlarına həvalə edilmişdir. Göstərilən vəzifələrin icrasında bələdiyyələrin iştirakı nəzərdə tutulmur.

Yuxarıda aparılan tədqiqat Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramlarının strategiyasının həyata keçirilməsində bələdiyyələrin rolunun artırılması ilə bağlı bir sıra problemlərin qanunvericilik çərçivəsində həllinin zəruriliyini təsdiq edir. Həmin problemlər və onların həlli yolları aşağıdakılardır:

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı ilə nəzərdə tutulan yerli əhəmiyyətli tədbirlərin yerli icra hakimiyyəti ilə bələdiyyə arasında hansı nisbətdə bölünməsinə dair müddəanın "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" və "Bələdiyyələrin statusu haqqında" Qanunla təsdiq edilməməsi.

2. Azərbaycan Respublikasının orta və uzunmüddətli perspektivdə inkişafı istiqamətlərini müəyyənləşdirən Strateji Yol Xəritəsində dövlət əmlakının bələdiyyələrə verilməsi ilə bağlı baş verə biləcək dəyişikliklərin proqnozlaşdırılmaması və yerli özünüidarə orqanlarının Yol Xəritəsinin hədəflərinin həyata keçirilməsində rolunun qiymətləndirilməməsi.

3. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə Sosial İqtisadi İnkişaf Strategiyası" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı dövlət sənədləri ilə nəzərdə tutulan vəzifələrin icrasında bələdiyyələrin iştirakının nəzərdə tutulmaması.

4. Azərbaycan Respublikasında yerli özünüidarə sisteminin otra və uzunmüddətli perspektivdə inkişafını ləngidən maneələrin aşkara çıxarılması və aradan qaldırılması ilə bağlı problemlərin

Forsayt metodologiyasına əsaslanan Strateji Yol Xəritəsindən istifadə edilməsi qaydasında aşağıdakı vəzifələrin həyata keçirilməsi:

- yerli özünüidarənin təşkili sahəsində mövcud vəziyyətin retrospektivdə qiymətləndirilməsi;
- yerli özünüidarəyə dair beynəlxalq hüquq və milli hüquq normalarının təkmilləşdirilməsi və konvergensiyasının təmin edilməsinə dair təkliflərin və tövsiyələrin əsaslandırılması;
- inzibati-hüquqi maneələrin aradan qaldırılması;
- yerli əhalinin özünüidarə hüququnun realizə edilməsi qaydalarının, vasitələrinin və üsullarının təkmilləşdirilməsi;
- bələdiyyə-dövlət və bələdiyyə-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi;
- bələdiyyə idarəetməsinin səmərəliliyinin yüksəldilməsi;
- yerli özünüidarənin inkişafı üzrə Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası [Elektron resurs]. URL: www.e-qanun.az/framework/897

2. Yerli özünüidarə haqqında Avropa Xartiyası [Elektron resurs]. URL: www.rm/col.int/the-congress-booklet-european-charter-of-local-self-government-azerlax/si/168098bc39

3. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu (2 iyul 1999-cu il) [Elektron resurs]. URL: www.e-qanun.az/framework/4770

4. “Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (7 dekabr 1999-cu il) [Elektron resurs]. URL: www.e-qanun.az/framework/251

5. “Yerli icra hakimiyyətləri haqqında” Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.) [Elektron resurs]. URL: www.e-qanun.az/framework/23701

6. “Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.) [Elektron resurs]. URL: www.e-qanun.az/framework/3560

7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.) [Elektron resurs]. URL: www.static.president.az/pdf/38542.pdf

8. “Azərbaycan Respublikasının regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişaf Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmişdir.) [Elektron resurs]. URL: www.e-qanun.az/framework/41320

9. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıışa dair I Dövlət Proqramı (Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.) [Elektron resurs]. URL: www.e-qanun.az/framework/52757

10. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası (Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.) [Elektron resurs]. URL: www.e-qanun.az//framework//50013

11. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Pripritetlər (Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir) [Elektron resurs]. URL: www.president.az/az/articles/view/5074

12. Bələdiyyələr regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır [Elektron resurs]. URL: https://www.yeniazerbaycan.com/Musahibe_e49914_az.html

13. Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunu (25 dekabr 2001-ci il) [Elektron resurs]. URL: https://rm.coe.int/16802e8723

14. Yerli və Regional Hakimiyyətlər Konqresi 326 (2012) saylı Tövsiyə [Elektron resurs]. URL: https://rm.coe.int/az-rbaycanda-yerli-v-regional-demokratiya-m-ruz-cil-r-j-vienen-niderla/1680a04d5b

15. Foresight Methods // Rafael Poppers Blog-Mode of access. [Elektron resurs]. URL: https://rafaelpopper.wordpress.com/foresight-methods/

16. Foresight Methods – UNESCO Chair on Future Studies. [Elektron resurs]. URL: https://unescofutures.hse.ru/en/methods

**Huseynov S.Z.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.91-99**
**UDC: 342**

## Problems of legal assessment of the role of municipalities in the implementation of the social-economic development programs and strategy of the Republic of Azerbaijan

**Abstract:** The article is dedicated to the evaluation of municipal participation in the implementation of measures envisaged by state programs and the Strategic Roadmap. It emphasizes the need to increase the role of municipalities in achieving the strategic goals of the Republic of Azerbaijan, particularly in the medium and long-term development programs and strategies of the state. It suggests using research methods based on the Foresight methodology to address this issue and proposes the development of a Local Self-Government Development Roadmap for Azerbaijan to facilitate the resolution of the identified problem.

**Keywords:** state; economy; program; strategy; duty; measure; municipality; participation; evaluation.

### References

1. Constitution of the Republic of Azerbaijan. Available at: www.e-qanun.az/framework/897 (in Azerbaijani).

2. European Charter on Local Self-Government. Available at: www.rm/col.int/the-congress-booklet-european-charter-of-local-self-government-azerlax/si/168098bc39 (in Azerbaijani).

3. Law of the Republic of Azerbaijan "On the Status of Municipalities". (02.07.1999). Available at: www.e-qanun.az/framework/4770 (in Azerbaijani).

4. The Law of the Republic of Azerbaijan on transfer of property to municipal ownership (07.12.1999). Available at: www.e-qanun.az/framework/251 (in Azerbaijani).

5. Regulation "On local executive authorities" (approved by the Decree of the President of the Republic of Azerbaijan dated on 06.06.2012). Available at: www.e-qanun.az/framework/23701 (in Azerbaijani).

♦ **Huseynov Sahil Zahir oglu** - PhD in Law, National Aviation Academy, Head of the "Law" Department (Azerbaijan).
E-mail: sahilhuseynov@naa.edu.az https://orcid.org/0009-0003-0732-7110

6. Regulation on the procedure and terms of transfer of state property to municipalities (approved by the Decree of the President of the Republic of Azerbaijan dated on 11.06.2001.). Available at: www.e-qanun.az/framework/3560 (in Azerbaijani).

7. Strategic Road Map of the perspective of the national economy of the Republic of Azerbaijan (approved by the Decree of the President of the Republic of Azerbaijan dated on 06.12.2016.). Available at: www.static.president.az/pdf/38542.pdf (in Azerbaijani).

8. State Program of Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan in 2019-2023 (approved by the Decree of the President of the Republic of Azerbaijan dated on 29.01.2019.). Available at: www.e-qanun.az/framework/41320 (in Azerbaijani).

9. State Program on the Great Belt to the liberated territories of the Republic of Azerbaijan (approved by the Decree of the President of the Republic of Azerbaijan dated on 16.11.2022.). Available at: www.e-qanun.az/framework/52757 (in Azerbaijani).

10. Socio-economic Development Strategy of the Republic of Azerbaijan in 2022-2026 (approved by the Decree of the President of the Republic of Azerbaijan dated on 22.07.2022.). Available at: www.e-qanun.az//framework//50013 (in Azerbaijani).

11. Azerbaijan 2030: National Principles for socio-economic development (approved by the Decree of the President of the Republic of Azerbaijan dated 02.02.2021). Available at: www.president.az/az/articles/view/5074 (in Azerbaijani).

12. Municipalities play an important role in the socio-economic development of regions. Available at: https://www.yeniazerbaycan.com/Musahibe_e49914_az.html (in Azerbaijani).

13. Law of the Republic of Azerbaijan on the approval of the European Charter on Local Self-Government (25.12. 2001). Available at: https://rm.coe.int/16802e8723 (in Azerbaijani).

14. Congress of Local and Regional Authorities Recommendation No. 326 (2012). Available at: https://rm.coe.int/az-rbaycanda-yerli-v-regional-demokratiya-m-ruz-cil-r-j-vienen-niderla/1680a04d5b (in Azerbaijani).

15. Foresight Methods // Rafael Poppers Blog-Mode of access. Available at: https://rafaelpopper.wordpress.com/foresight-methods/

16. Foresight Methods – UNESCO Chair on Future Studies. Available at: https://unescofutures.hse.ru/en/methods

**Гусейнов С.З.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.91-99**
**УДК: 342**

## Проблемы правовой оценки роли муниципалитетов в осуществлении программ социально-экономического развития и стратегии Азербайджанской Республики

**Аннотация:** Посвящается оценке участия муниципалитетов в осуществлении предусмотренных государственными программами и Стратегической Дорожной Картой мероприятий. Необходимость повышения роли муниципалитетов в реализации стратегических целей Азербайджанской Республики обусловлена неопределенностью участия муниципалитетов в

♦ **Гусейнов Сахил Захир оглы** – доктор философии по праву, заведующий кафедрой «Право», Национальная Академия Авиации (Азербайджан). E-mail: sahilhuseynov@naa.edu.az https://orcid.org/0009-0003-0732-7110

мероприятиях, предусмотренных государственными среднесрочными и долгосрочными программами развития и стратегии. Для решения указанных проблем в порядке использования методов исследований, основанных на методологии Форсайт, выдвинуто предложение о разработке Дорожной Карты по развитию местного самоуправления в Азербайджанской Республике.

**Ключевые слова:** государство; муниципалитет; экономика; программа; стратегия; задача; мероприятие; участие; оценка.

**Библиография**

1. Конституция Азербайджанской Республики [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/897 (на азерб. яз.).

2. Европейская Хартия Европейская хартия местного самоуправления [Электронный ресурс]. URL: www.rm/coe.int/the-congress-booklet-european-charter-of-local-self-government-azerlax/si/168098bc39 (на азерб. яз.).

3. “Закон Азербайджанской Республики «О статусе муниципалитетов» (02.07.1999 года) [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/4770 (на азерб. яз.).

4. Закон Азербайджанской Республики «О передаче имущества в муниципальную собственность» (07.12.1999 г.) [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/251 (на азерб. яз.).

5. Положение «О местных исполнительных органах» (утверждено Указом Президента Азербайджанской Республики от 6 июня 2012 года). [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/23701 (на азерб. яз.).

6. «Положение о порядке и условиях передачи государственного имущества муниципалитетам (утверждено Указом Президента Азербайджанской Республики от 11 июня 2001 года.) [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/3560 (на азерб. яз.).

7. Стратегическая дорожная карта О перспективах национальной экономики Азербайджанской Республики (утверждена Указом Президента Азербайджанской Республики от 6 декабря 2016 года). [Электронный ресурс]. URL: www.static.president.az/pdf/38542.pdf (на азерб. яз.).

8. «Государственная программа социально-экономического развития регионов Азербайджанской Республики на 2019-2023 годы» (утверждена Указом Президента Азербайджанской Республики от 29 января 2019 года). [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/41320 (на азерб. яз.).

9. «Первая Государственная программа «Большой пояс» по освобожденным территориям Азербайджанской Республики (утверждена Указом Президента Азербайджанской Республики от 16 ноября 2022 года). [Электронный ресурс]. URL: www.e-qanun.az/framework/52757 (на азерб. яз.).

10. Стратегия социально-экономического развития Азербайджанской Республики на 2022-2026 годы (утверждена Указом Президента Азербайджанской Республики от 22 июля 2022 года). [Электронный ресурс]. URL: www.e-qanun.az//framework//50013 (на азерб. яз.).

11. Азербайджан 2030: Национальные принципы социально-экономического развития (утверждены Распоряжением Президента Азербайджанской Республики от 2 февраля 2021 года) [Электронный ресурс]. URL: www.president.az/az/articles/view/5074 (на азерб. яз.).

12. Муниципалитеты играют важную роль в социально-экономическом развитии регионов [Электронный ресурс]. URL: https://www.yeniazerbaycan.com/Musahibe_e49914_az.html (на азерб. яз.).

13. Закон Азербайджанской Республики об утверждении Европейской Хартии местного самоуправления (25.12.2001 г.) [Электронный ресурс]. URL: https://rm.coe.int/16802e8723 (на азерб. яз.).

14. Рекомендация Конгресса местных и региональных властей № 326 (2012 г.). [Электронный ресурс]. URL: https://rm.coe.int/az-rbaycanda-yerli-v-regional-demokratiya-m-ruz-cil-r-j-vienen-niderla/ 1680a04d5b (на азерб.яз.).

15. Foresight Methods // Rafael Poppers Blog-Mode of access. [Электронный ресурс]. URL: https://rafaelpopper.wordpress.com/foresight-methods/

16. Foresight Methods – UNESCO Chair on Future Studies. [Электронный ресурс]. URL: https://unescofutures.hse.ru/en/methods